# MÜBARİZ KEŞİKDƏ

5 sentyabr 2019-cu il
Cümə axşamı
№ 34 (3449)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

***Avqustun 28-də "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1654-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 28-də Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə XVI Ali Başçı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 28-də Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 28-də milli bayram – Müstəqillik Günü münasibətilə Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sooronbay Jeenbekova təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Avqustun 29-da Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının milli bayramı-Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Şavkat Mirziyoyevə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Avqustun 29-da dövlətimizin başçısı milli bayramı – Konstitusiya Günü münasibətilə Slovakiya Respublikasının Prezidenti zati-aliləri xanım Zuzana Çaputovaya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Avqustun 30-da ölkəmizin rəhbəri Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Nquyen Fu Çonqa təbrik məktubu göndərib.***

## PREZİDENT İLHAM ƏLİYEV RUSİYA TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Prezident Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulandı, Nikolay Patruşevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi bildirildi və bu səfərin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.



## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI







**DİN Daxili Qoşunlarının Qəbələ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin zabit və gizirləri üçün əsaslı təmir edilmiş yaşayış binasının istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilib.**

**Tədbirdə iştirak edən respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov yeni binada mənzillə təmin olunmuş sakinlər qarşısında çıxış edərək onları təbrik edib, yeni mənzillərində xoşbəxtlik, yüksək rifah, eləcə də xidmətdə uğurlar arzulayıb. O, zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulayıb.**

Nazir deyib ki, son illər Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarca obyekt, hərbi şəhərciklər, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilib. Bildirilib ki, yeni təmir olunmuş 5 mərtəbəli 80 mənzilli bu binanın da istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsidir.

Nazir hərbi qulluqçulara verilən mənzillərə baxıb, onlarla həmsöhbət olub. Daxili Qoşunların yeni tikilidə mənzillə təmin olunan zabit və gizirləri, onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daha sonra nazir, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Qəbələ, Zaqatala rayonlarında və Şəki şəhərində yerləşən hərbi hissələrində olub. Bu tədbirlərdə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyət və texnika barədə raportlar verib.

Hərbi hissələrin sıra meydanında düzülmüş hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov ulu öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ümumən ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

*Ardı 2-ci səhifədə.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 31-də Şəki Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.**



Qəbulda Şəki də daxil olmaqla Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərindən, eyni zamanda, həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən müraciət edən 18 nəfər iştirak edib.

Vətəndaşları şəxsən dinləyən nazir onları narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb, polisin fəaliyyətinə aid olmayan ərizələrin aidiyyatı üzrə digər dövlət orqanlarına göndəriləcəyi nəzərə çatdırılıb.

Tədbirdə iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə dövlətimizin başçısına minnətdarlıq edib, onun ölkəmizin sürətli inkişafına yönəlmiş ardıcıl, məqsədyönlü və qətiyyətli siyasi kursunu hər zaman dəstəkləyəcəklərini vurğulayıblar.

*Əvvəli 1-ci səhifədə.*

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib. O, ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunların cəbhə xəttində şərəfli döyüş yolu keçdiyini, bu yolda yüzlərlə şəhid verdiyini qeyd edərək, bildirib ki, hələ də torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də qüdrətli Azərbaycan ordusu ilə yanaşı Daxili Qoşunların şəxsi heyəti də öz üzərlərinə düşən xidməti vəzifələri ilə bərabər torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.



Hərbi hissələrin şəxsi heyətinə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri sonda daxili işlər orqanlarının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissələrin qərargahlarında komandir heyətləri ilə əməliyyat müşavirələri keçirilib.

Sonra o, hərbi hissələrin tədris, silah otaqlarında, avtomobil və zirehli texnika parkında, tibb məntəqələrində, yeməkxanalarında olub, hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir əsgər yeməkxanalarında şəxsi heyətlə birlikdə nahar edib.

# CİNAYƏTKARLIQLA MÜBARİZƏNİN ÖNÜNDƏ



*"Daxili İşlər Nazirliyinin struktur qurumları arasında Baş Cinayət Axtarışı İdarəsinin xüsusi çəkisi, mühüm rolu vardır. Son illər bu quruma rəhbərlik edən polis general-mayoru Arzu Daşdəmirovun ümumilikdə ölkədə cinayətkarlıqla mübarizədə və bu işin səmərəli təşkilində əməyi danılmazdır".*

*Avqustun 31-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun dəyərli həmkarımızı 55 yaşının tamam olması münasibətilə qəbul edərkən səsləndirdiyi bu fikirlər A. Daşdəmirovun çoxsaylı kollektivimizdə qazandığı hörmətin göstəricisidir.*

*Nazir V.Eyvazov bir məqamı xüsusi vurğulamışdır ki, polis general-mayoru Arzu Daşdəmirov hər zaman intelektual səviyyəsi, peşəkarlığı, nizam-intizamı, qətiyyəti və təşkilatçılığı, eyni zamanda yüksək insani keyfiyyətləri ilə fərqlənmişdir.*

*Cənab nazir yubilyarın ölkəmizdə sabitliyi, əmin-amanlığı pozmaq cəhdlərinin, dövlətçiliyimizə yönələn təxribatçı hərəkətlərin qarşısının alınmasında həmişə barışmaz mövqe tutduğunu diqqətə çatdırmış, onu ulu öndərin ideallarına, dövlət başçımızın yeritdiyi siyasətə sadiq polis zabiti, sözü ilə əməli bütöv bir şəxsiyyət kimi səciyyələndirmiş, qanunvericilik ilə daxili işlər orqanlarına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsində, yüksək peşəkarlıq və təşkilatçılıq bacarığı nümayiş etdirdiyini nəzərə çatdırmışdır.*

*Qeyd olunmuşdur ki, ictimai asayişin mühafizəsində və cinayətkarlıqla mübarizədə şücaət və fədakarlıq nümayiş etdirdiyinə görə polis general-mayoru A.Daşdəmirov iki dəfə dövlət mükafatı - 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "İgidliyə görə" medalı, eləcə də DİN-in çoxsaylı mükafatları ilə təltif olunmuşdur.*

*General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirmişdir ki, Arzu Daşdəmirov göstərilən etimadı bundan sonra da layiqincə doğruldacaq, idarəçilik məharəti və uzun illər qazandığı zəngin təcrübəsi ilə təkcə rəhbərlik etdiyi baş idarənin deyil, bütövlükdə daxili işlər orqanlarının fəaliyyətinə öz töhfələrini verəcəkdir.*

*Sonra nazir imzaladığı DİN-in "Fəxri fərman"ını yubilyara təqdim etmişdir.*

*Göstərilən diqqət və qayğıya, barəsində deyilən xoş sözlərə görə minnətdarlığını bildirən polis general-mayoru Arzu Daşdəmirov üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə söz vermişdir.*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il sentyabr ayının 28-də Lənkəran Şəhər-Rayon Polis Şöbəsində Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

*****

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2019-cu il sentyabr ayının 21-də Şirvan Şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# DİN-in MƏTBUAT XİDMƏTİNDƏN

**"Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında" 25 oktyabr 2011-ci il tarixli protokola əsasən, 2019-2020-ci tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində magistr təhsili almaq üçün Azərbaycan Polisinə 6 yer ayrılmışdır.**



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişinə əsasən DİN-in "Avtomatlaşdırılmış kadr informasiya sistemi" vasitəsilə şərtlərə uyğun olaraq bakalavr ali təhsil dərəcəsinə malik, türk dilini yaxşı bilən, fiziki hazırlıqlı, geniş dünyagörüşlü, müasir informasiya texnologiyaları ilə işləməyi bacaran 6 əməkdaş seçilərək sənədləri qardaş Türkiyənin müvafiq təhsil müəssisəsinə göndərilmişdir.

Bu münasibətlə seçilmiş namizədləri qəbul edən Daxili İşlər naziri Vilayət Eyvazov onları təbrik edərək iki qardaş ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd etmiş, təhsil alacaqları dövrdə türkiyəli həmkarlarının təcrübələrindən yararlanmağı, öz üzərlərində daim işləməyi, biliklərini və fiziki hazırlıq səviyyələrini artırmalarını tövsiyyə etmişdir. O, əmin olduğunu bildirmişdir ki, təhsil alacaqları müddətdə onlar Azərbaycan Polisini, xalqımızı şərəflə təmsil edəcəklər.

# BAKI BPİ TƏDBİR KEÇİRDİ

**Bakı Şəhər Baş Polis İdarəsi və tabeli orqanları avqustun 28-də jurnalistərin iştirakı ilə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, inzibati hüquqpozmalara qarşı gücləndirilmiş əməliyyat-profilaktik, profilaktik-maarifləndirmə tədbirləri keçirib.**

Paytaxtın bütün rayonlarını əhatə edən gücləndirilmiş tədbirlərə KİV nümayəndələri cəlb olunmaqla hüquq pozuntularının profilaktikası, küçə ticarəti, avara və dilənçiliklə məşğul olma ilə yanaşı, şəhər görkəminə xələl gətirən, antisanitariya, avtomobil yollarında hərəkətin təhlükəsizliyi, xüsusilə avtomobillərin müəyyən olunmayan yerlərdə saxlanılması və digər hallarla bağlı fəal iş aparılıb.

Əməliyyat və profilaktiki tədbirlər nəticəsində müxtəlif növ cinayət törətdiklərinə görə axtarışı elan olunan 30 nəfərin yeri müəyyənləşdirilərək saxlanılıb, küçə ticarəti ilə məşğul olduqlarına görə 216, 52 nəfər avara və dilənçiliklə məşğul olduqlarına görə, eləcə də xırda xuliqanlıq, xırda talama, antisanitariya və digər sosial-neqativ hallar aşkar olunub.

Bununla yanaşı, yol hərəkəti qaydalarını pozan ümumilikdə 1841, o cümlədən kobud qayda pozuntusuna yol verən 937 sürücü barəsində İXM-nin müvafiq maddələri ilə inzibati xəta haqqında protokollar tərtib olunub, çoxavazlı səs siqnalları, səs boğucular, sayrışan işıqlar və qanunla qadağan olunan digər əlavə avadanlıqlar quraşdırılan, eləcə də konstruksiyasında dəyişiklik edilən 16, avtomaşını sərxoş halda idarə edən 14 sürücü, 4 avtoxuliqan və yolu müəyyən olunmayan yerdən keçən 355 piyada müəyyən olunub.

Polis əməkdaşları ilə birgə KİV nümayəndələri vətəndaşlarla fərdi profilaktik söhbətlər aparıb, sakinlərin məsuliyyət hissinin artırılması, hüquqi düşüncənin formalaşması istiqamətində tövsiyələr veriblər.

*Elşad Hacıyev,*
*polis mayoru*

# POLİS AKADEMİYASINDA...

***Avqustun 30-da Polis Akademiyasında əyani təhsil alan 1-2-ci kursların şəxsi heyəti və valideyinləri ilə görüş keçirilmişdir.***



Görüşdə akademiyanın xidməti fəaliyyəti və daxili qaydaları ilə bağlı məlumat verilmişdir, eyni zamanda kursantların tədris göstəriciləri valideyinlərin nəzərinə çatdırılmışdır. Kursant heyətinin nizam-intizamının möhkəmləndirilməsində, onların mənəvi-psixoloji təminatının təşviq olunmasında valideyinlərlə əməkdaşlığının önəmini xüsusi vurğulanmışdır.





Daxili Qoşunların Quba rayonunda yerləşən hərbi hissəsinə göndərilən kursantlara təlimatlar verilmiş, 1-ci kursda buraxılan nöqsanlar diqqətə çatdırılmış, nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı tapşırıqlar verilmişdir.

*Vüsal Məmmədov*
*Foto Üzeyir Muradovundur*

# GÜNƏŞ XƏZƏRDƏN, "XƏZRİ"DƏN DOĞUR





**"Koroğlu" metrostansiyasının yaxınlığından 171 nömrəli avtobusla getmək olar. Əgər daha tez çatmaq istəyirsinizsə, o zaman taksilərə müraciət edin. Bir nəfərin gediş haqqı iki manatdır.**

"Xəzri" deyəndə ağıla ilk gələn istirahət olur. "Xəzri"yə necə getmək olar, sualı ilə insanlara müraciət edəndə bir daha şahidi oldum ki, ünvanını unutmayıblar, o xoş xatirələrdə qalıb, kimlər rahət məkanları nə çox. Bəlkə reklam edirlər.

-Qardaş, biz neçə illərdir ki, ora istirahətə gedirik,-deyib söhbətə qoşulan

-Hardan bildiniz?

-Bu yoldaşlar da ora gedirlər.

-Siz də gələndə ürəyimdə dedim ki, qardaş da yəqin ora gedir. Zənnim məni aldatmadı. Neçə illərdir yollardayam. Yay oldumu yolum, demək olar ki, hər gün "Xəzri"yə düşür. Hamı tərifləyir.

-Nəyini tərifləyirlər? Şüvəlanda isti-

-Ən əsası, təmizliyə söz ola bilməz. Milli və xarici ölkələrin mətbəxinin yeməklərinin dadı isə "Xəzri"də bir başqadır.

Mərkəzə daxil olmaq üçün sənədlərimizi komendant xidmətinin əməkdaşına təqdim edirik. Qeydiyyat aparılır.

"Xəzri"də insanları ilk salamlayan həmişəyaşıl "Eldar şamları"dır. Xəzərin xəzrisini, giləvarını, bir sözlə, təmiz havasını ciyərlərinə çəkən bu ağacların altında sübh tezdən gəzməyin, ciyərdo-





üçünsə əsl nostalgiyadır…

"Buzovnaya gedirsiniz" deyəndə orta yaşlı, günün istisindən başındakı günlüyü bozarmış taksi sürücüsü: "Əşi, denən "Xəzri"yə gedirəm də",-deyib gülümsədi.

yol yoldaşımın, deyəsən, ürəyi dolu idi.

-Düzdür, gözəl məkanlar var. Ancaq orada ailəvi istirahət üçün yaradılan şəraiti gözlərinizlə görsəniz, mən inanıram ki, siz xaricə yox, elə hər yay "Xəzri"yə üz tutacaqsınız.

lusu nəfəs almağın bir ayrı ləzzəti var. Əbəs yerə deməyiblər: "Sağlamlıq təmiz havadan və sudan başlayır"…

*Ardı var.*

***Hafiz Təmirov,***
***polis mayoru***

# POLİS ƏMƏKDAŞI DÖRDQAT DÜNYA ÇEMPİONU OLDU

**Avqustun 23-dən 25-dək Rumıniyada Konq-fu sanda üzrə dünya çempionatı keçirilib. 15 ölkədən 300-dən artıq idmançının qatıldığı bu mötəbər yarışda milli komandamız da təcrübəli idmançılarla təmsil olunub.**



Ölkəmizin yığma komandasının üzvü olan Suraxanı Rayon Mühafizə Şöbəsinin əməkdaşı, polis serjantı Şənlik Talıbov inamlı mübarizə aparıb. Təmsilçimiz çəkisi 85 kiloqramadək olan idmançılar arasında üç döyüş keçirib. Bolqar idmançı ilə qarşılaşan Ş.Talıbov döyüşə üstünlüklə başlayıb və sonadək bu tempi davam etdirib. Daha sonra rumın və macar rəqiblərini də məğlub edən Şənlik dünya çempionatlarındakı qızıl medallarının sayını 4-ə çatdırıb.

# POLİS İDMANÇILARI DAHA BİR YARIŞDA GÜCLƏRİNİ SINADILAR

**Avqustun 29-dan start götürən daxili işlər orqanlarının əməkdaşları arasında silahsız özünü müdafiə üzrə çempionat başa çatıb.**

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində düzənlənən bu tədbirin açılış mərasimində çıxış edən Olimpiya, dünya və Avropa çempionu, İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova yarış iştirakçılarını və qonaqları salamlayıb, idmançılara uğurlar arzulayıb. Şəxsi heyətin fiziki hazırlığının daha da artırılması, silahsız özünü müdafiə fənlərinə daha yaxşı yiyələnmələri məqsədi ilə keçirilən yarışın əhəmiyyətini nəzərə çatdırıb.

Yarışda paytaxt qarnizonu ilə yanaşı respublikanın Gəncə və Sumqayıt şəhər, rayon Polis Baş İdarə, İdarələrinin, Daxili Qoşunların Baş İdarəsinin, nizami hissə və tədris müəssisələrinin əməkdaşları öz bacarıqlarını nümayiş etdiriblər.

10 komandadan 80-ə yaxın əməkdaşın iştirak etdiyi bu yarışda ilk üçlükdə Bakı Şəhər Baş Polis İdarəsi, Daxili Qoşunların Baş İdarəsi və Əlahiddə Çevik Polis Alayının komandaları qərarlaşıblar.

Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Munir Orucov, Mahir Əhmədov, Ehtiram Babayev və polis mayoru Aydın Həşimov iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edən İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın ildən-ilə təcrübələrinin artdığını diqqətə çatdırıb. O, bildirib ki, mütəmadi olaraq paytaxtımızla yanaşı bölgələrdə ərazi polis orqanlarının şəxsi heyəti ilə aparılan fiziki hazırlıq məşğələlərinin səmərəliliyinin artırılması, əməkdaşların silahsız özünümüdafiə fəndlərinə daha yaxşı yiyələnmələri üçün müvafiq tapşırıqlar verilir, bu işdə onlara praktik kömək göstərmək məqsədi ilə yerlərdə təlim toplanışları keçirilir.

***Z.Hüseynov,***
***polis serjantı***

# BAKI DÜNYANIN ƏN TƏHLÜKƏSİZ 50 ŞƏHƏRİNDƏN BİRİDİR

**Bakı dünyanın ən təhlükəsiz şəhərləri siyahısına daxil edilib.**

Reytinq "The Economist Intelligence Unit" və "The Economist" nəşrləri tərəfindən tərtib edilib.

Ekspertlər siyahını hazırlamaq üçün dünyanın 60 böyük şəhərini 57 müxtəlif göstərici (rəqəmsal təhlükəsizlik, səhiyyə və infrastrukurun təhlükəsizliyi, şəxsi təhlükəsizlik və s.) əsasında təhlil ediblər.

Dünyanın ən təhlükəsiz şəhərlərinin reytinqinə Tokio başçılıq edir. Siyahıda sonrakı yerləri müvafiq olaraq, Sinqapur, Osaka, Amsterdam və Sidney tuturlar.

Bakı 56,4 balla 49-cu mövqedə qərarlaşıb. Azərbaycan paytaxtı rəqəmsal təhlükəsizlik üzrə 46-cı, səhiyyənin təhlükəsizliyi üzrə 41-ci, infrastruktur təhlükəsizliyi üzrə 54-cü, şəxsi təhlükəsizlik üzrə isə 49-cu pilləyə layiq görülüb.

Qeyd edək ki, reytinqdə MDB ölkələrindən yalnız Moskva və Bakı şəhərləri yer alıb.

***N.Cavadov***

## MİLYON YAŞLI FİNCAN

XX əsrin əvvəllərində ABŞ-ın özəl müzeylərindən birində tapılıb. Onun yanında məktub var idi. Məktubda yazılır: "1912-ci ildə Oklahoma ştatının Tomas şəhərində bələdiyyə şəhər elektrik stansiyasında işləyəndə mən iri qayalı kömürlə rastlaşdım. Qayadan düşən dəmir fincan özündən sonra kömürdə yer salmışdır. Mən qayanı yaranda və fincan düşən zaman Djim Stoll şirkətin əməkdaşı yanımda idi."

Alimlərin fikrincə, Oklahomanın mədənlərində çıxarılan kömürün 312 milyon il yaşı var.

# MARAQ DÜNYASI

## XİLASKAR–İLDIRIM

1972-ci ildə oymaqçı olan gənc dindar Ogüst Düpre yeni sikkələrin yaradılmasında iştirak edib və onların Fransa inqilabı zamanı buraxılması nəzərdə tutulmuşdu. O, döymə üzərində qanad fiquru çəkdi və sikkələrə xalq arasında "qanadlı mələklər" deyirdilər. İki ildən sonra ölkədə kütləvi terror başladı və Düpre həbsxanaya düşdü. Onu gilyotində ölüm cəzasına məhkum etdilər və edam yerinə gedərkən, oymaqçı öz şəkilindən olan sikkəni sıxaraq dua etməyə başlayır. Bu vaxt yaxınlıqdakı kilsə qülləsini ildırım vurdu. Çaxnaşma başlayanda Düprenin edamı təxirə salındı. Gənc yarım ilini həbsxanada keçirdi və azadlığa çıxanda Tanrıya dualar edirdi.

## MALTANIN MEQALİTLƏRİ

Maltanın məbədləri dünyanın ən qədim qurğularındandır və planetimizin heç yerində analoqu tikililər aşkar edilməmişdir. Tədqiqatlar göstərir ki, məbədlərin yüksəlişi qədim Misir piramidalarının tikilişindən xeyli əvvəl başlayıb. Hələ də məlum deyil, o vaxtı insanlar xüsusi texnika tətbiq etmədən heyrətamiz tikililər yüksəldiblər. Monolit daş plitələrin hər birinin çəkisi əlli tondan artıq idi. Eynilə hələ də aydınlaşdırılmayıb ki, Maltanın ərazisində hansı sivilizasiya mövcud olub və daş məbədlərinin memarları hara yoxa çıxıb.

***Hazırladı: R.Vəliyev***

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

***Xəbər verildiyi kimi, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə 2017-ci ildə Daxili İşlər Nazirliyinin rəsmi veb saytında (www.mia.gov.az) yaradılaraq istifadəyə verilmiş xüsusi interaktiv pəncərə vasitəsi ilə vətəndaşlar adlarının mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclu kimi axtarışda, eləcə də sərhədkeçməyə məhdudiyyət siyahısında olub-olmaması barədə məlumat əldə edə bilərlər.***

***Bunun üçün DİN-in* mia.gov.az (http://mia.gov.az/?//content/liability) *saytına daxil olub qeyd edilən elektron xidmət (Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış borclular barədə məlumatlar) seçilməli və açılan pəncərənin qrafalarına müvafiq şəxsi məlumatlar doldurulub təsdiq edilməlidir.***

***İnteraktiv pəncərədə axtarış iki variantda aparılmalıdır. Birinci variantda soyad, ad, ata adı və doğum tarixi qeyd edilməklə, digər variantda şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və şəxsin doğum tarixi göstərilməklə daxil edilən məlumatın düzgünlüyünə əmin olmaq üçün vətəndaşlara hər iki variant üzrə axtarış aparmaq tövsiyə olunur.***

***Əgər şəxs axtarışdadırsa qırmızı rəngdə "Diqqət, siz borclu kimi axtarışdasınız!" xəbərdarlığı ekrana çıxır və həmin şəxs barəsində məlumatlar, o cümlədən müraciət etməli olduğu polis orqanı göstərilir.***

***Vətəndaş borcunu müvafiq qaydada ödədikdə barəsində olan məhdudiyyət aradan qalxır.***

***Şəxs axtarışa elan edilməyibsə ekranın aşağı hissəsində yaşıl rəngdə "Axtardığınız parametrlərə uyğun borclu barədə məlumat yoxdur" informasiyası verilir.***

***Daxili İşlər Nazirliyi***

# YAXIN, UZAQ... PİRALLAHI







**Pirallahı adasını sahillə cəmi bircə körpü birləşdirir. Deməli, bu yaxın-uzaq adada yaşamaq da, işləmək də çətin, özəl və gözəldir.**

Son illər adanın siması tamam dəyişib. Elə körpüdən başlayaraq, RPŞ-nin inzibati binasınadək hər şey yenilənib, müasirləşib və göz oxşayan bir şəklə düşüb.

Dövlətimiz Azərbaycanda turizmin sürətli inkişafı, qısa müddətdə həyata keçirilən möhtəşəm layihələr və sosial-iqtisadi yüksəliş proqramından Pirallahı rayonu da nəsibini alıb.

Amma elə mənzərələr, elə görüntülər var ki, onu gərək gözlə görəsən. Gələrsiniz, görərsiniz.

Biz isə bu dəfə də foto-obyektivi polislərimizə tuşladıq. Çəkdik, söhbət etdik, sizin diqqətinizə çatdırırıq.



**Tanış olun: Polis mayoru Səyavuş Quliyev və polis kiçik serjantı Əliqayıb Abbasov.** RPŞ-yə gələn hər kəsi ilk olaraq onlar qarşılayırlar. Növbətçi hissədə xidmət edirlər və ən əsası, daxil olan hər bir məlumata operativ reaksiya verilməsi məqsədilə dəqiqləşdirmələr aparırlar, dərhal da rəhbərliyə çatdırırlar.

**Post-Patrul Xidməti Bölüyünün komandiri, polis mayoru Vaqif Mehdiyev, sahə inspektoru, polis baş leytenantı İlham İsgəndərov, polis serjantları Ceyhun Nəcəfov və Teymur Yusifov** xidmətlərini ərazidə həyata keçirirlər. Nəticə isə göz qabağındadır.

***Üzeyir Muradov***

# UZAĞI YAXIN EDƏN...
# HƏKİM AMBULATORİYASI

**Bərdəyə hər dəfə yolum düşəndə bu heyrətamiz agacları-xan çinarları seyr etməkdən zövq alıram. Onlardan bir neçəsi də Rayon Polis Şöbəsinin inzibati binasının həyətindən göylərə boylanır. O qədər möhtəşəm, o qədər yaraşıqlıdır ki...**



Polis postuna yaxınlaşıb özümü təqdim etdim və gəlişimin məqsədini söylədim. Postda olan gənc həmkarım nəzakətlə: “Xoş gəlmisiz”,- dedi. Onu da əlavə etdi ki, bu gün məktəblilərlə növbəti görüş təşkil olunub, rəhbərlik də onlarladır.

Həyətə baxdım ki, xeyli adam vardı. Deyəsən, vaxtında gəlmişdim. Şöbə rəisi, polis polkovniki Muradəli Babayev yenə də bir qrup məktəblini RPŞ-yə dəvət edib. Öyrəndim ki, məktəblilər əvvəlcə inzibati binayla-Növbətçi hissə, xidməti dərs otağı, akt zalı ilə tanış olublar. Onlara polisin gündəlik işi barədə ümumi məlumatlar verilib. Sonra həyətdə təşkil olunmuş “dəyirmi masa”da veteranlarla və təcrübəli əməkdaşlarla görüş keçirilib, qonaqların çoxsaylı sualları həvəslə cavablandırılıb.

Üzlərindəki sevincdən şagirdlərin bu görüşdən necə məmmun qaldıqlarını sezməmək mümkün deyildi.

Ətrafa göz gəzdirəndə nəzərimə ağ xalatlı tibb işçiləri sataşdı. “Onlar da görüşə gəliblər?”-deyə soruşanda polis polkovniki M.Babayev gülərək: “Yox, onlar bizim sağlamlığımızın keşiyində dururlar,”-dedi. "Burada DİN-in Tibb İdarəsinə bilavasitə tabe olan Bərdə Regional Həkim Ambulatoriyası yerləşir".



Gəlmişkən onların da xidmətilə tanış olmaq qərarına gəldim...

İçəri keçəndə bir anlıq harada olduğuma inanmadım. Bura hər cür avadanlıqla təchiz olunmuş tibb məntəqəsidir. Ambulatoriyanın rəisi, tibb xidməti polkovnik-leytenantı Həbib Məmmədov verir məlumatı.



Tibb İdarəsinin tərkibində 4 belə ambulatoriya fəaliyyət göstərir. Bunlar Gəncə, Sumqayıt, Lənkəran və Bərdə şəhərlərindədir. Bərdə məntəqəsi 2016-cı ildə əsaslı təmir olunub. On dörd şöbənin əməkdaşına, onların ailə üzvlərinə, həmçinin bölgədən olan polis veteralarına tibbi xidmət göstərir. Əməkdaşlar vaxtlı-vaxtında dispanser müayinədən keçirlər. Bu, polis əməkdaşlarını vaxt itkisindən də azad edir.



Ambulatoriyada USM, EKQ, həmçinin şəkərli diabetin müayinəsi üçün bütün lazımi avadanlıq mövcuddur. Qeydiyyat və stasionar mülicə otaqlarında xəstələrin qəbulu və onlara xidmət üçün hər cür şərait yaradılıb. Zərurət yarandıqda xəstələrin yerli poliklinikalarda dərinləşmiş müayinələrdən keçirilməsinə yardım göstərilir.

Söhbətimiz zamanı iki polis əməkdaşının ambulatoriyaya müraciət etdiklərini gördüm. Bakıda müşahidə etdiyim mənzərənin eynisinin şahidi oldum...

***Çingiz Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# “Xəzri” sizi gözləyir!




**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

## Daxili İşlər Nazirliyinin “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

# ELAN

"İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Bakı şəhər Baş Polis İdarəsinə bilavasitə tabe olan Bakı Metropolitenində Polis Şöbəsi vakant mülki işçi vəzifələrinə (polisə ictimai dəstək) xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə həqiqi hərbi xidmət keçmiş, yaşı 20-dən 25-dək, boyu 170 (qadınlar), 180 (kişilər) santimetr və yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, tam orta, orta ixtisas və ali təhsilli, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanlarının rəhbərliyi ilə ictimai asayişin qorunması üzrə funksiyaların (polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaq.

İctimai asayişin qorunmasında 2 il əməkdaşlıq etmiş şəxslərə daxili işlər orqanlarında xidmətə qəbul zamanı üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

***Əlavə məlumat almaq istəyənlər Bakı Metropolitenində Polis Şöbəsinə (Zərgərpalan küçəsi 135. Metronun “Nizami” stansiyası) müraciət edə bilərlər.* Tel: (012) 490-02-36**

## Avqustun 28-dən sentyabrın 3-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 134 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 76 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 157 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 82 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 17 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 79 fakt müəyyən edilmişdir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Masallı RMB-nin rəisi Natiq Dəmirova atası

**TEYYUB kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti iş yoldaşları Vüqar Məmmədova əzizi

**FƏRİD MƏMMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİO-nun Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin şöbə rəisi Əli Fəhradova qardaşı

**HÜSEYNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqatala RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdam RPŞ-nin rəisi Pərviz İsmayılov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**RAFİQ RZAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Nəqliyyatda Baş Polis İdarəsinin şöbə rəisi

**AZƏR SADIQOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Daxili İşlər naziri İjaz Əhməd Şah ilə görüşüb. Görüşdə dostluq və strateji tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub, hər iki ölkənin Daxili İşlər nazirlikləri və miqrasiya orqanları arasında mövcud olan əməkdaşlığın qarşılıqlı əlaqələrə öz töhfəsini verdiyi bildirilib.

İjaz Əhməd Şah Azərbaycanın yaxın dost və qardaş ölkə kimi daim müxtəlif məsələlərdə Pakistanla həmrəylik nümayiş etdirdiyini vurğulayaraq təşəkkürlərini çatdırıb. O, Pakistanın Azərbaycanın hüquq-mühafizə orqanları ilə təhlükəsizlik, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə, məhkumların təhvil verilməsi




və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinə, ikitərəfli hüquqi bazanın təkmilləşdirilməsinə və qarşılıqlı səfərlərin həyata keçirilməsinə hazır olduğunu bildirib.

*****

Avqustun 29-da Belçikanın Vetteren əyalətinin E40 şosesində baş vermiş qəzanı smartfona çəkdiyinə görə təqribən 100 sürücünün hər biri 116 avro cərimələnib.

Həmin gün səhər qaldırıcı kran daşıyan yük maşını çevrilərək bir hərəkətin hər üç zolağında yolu kəsib. Nəticədə şosedə həmin istiqamətdə hərəkət 5 saat iflic vəziyyətinə düşüb. Çevrilmiş yük maşınının böyründən keçib getməli olan sürücülərsə bu yol-nəqliyyat hadisəsini smartfona çəkərək hərəkəti daha da yavaşıtdığına və tıxacın müddətini uzatdığına görə cərimələniblər.

*****

Ötən il Belçikanın təmir-tikinti işlərinin aparıldığı sahələrdə 884 yol-nəqliyyat hadisəsi baş verib. Bu hadisələr nəticəsində 16 nəfər həyatını itirib, 1164 işçi isə xəsarət alıb.

Bədbəxt hadisələrin başvermə səbəbi əksər hallarda onunla bağlıdır ki, sürücülər yol-tikinti və ya təmir işlərinin aparıldığı sahələrdən çox sürətlə ötüb keçirlər. Tədqiqatlar göstərir ki, hər on belçikalı sürücüdən yeddisi bu yerlərdən keçən zaman sürəti azaltmağı unudur.

Bununla yanaşı, avtomagistralların yol-təmir işlərinin aparıldığı sahələrində baş verən qəzaların yarısı ağırtonnajlı yük avtomobilləri ilə bağlıdır. Bu isə yol-nəqliyyat hadisələri ilə bağlı təhlükəni daha da artırır.

*****

Son beş ildə Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı 34,2 faiz azalıb.

Daxili İşlər Nazirliyinin yaydığı statistik məlumatda hadisələr nəticəsində 2014-cü ildə ölənlərin sayının 712 nəfərdən ötən il 468 nəfərə qədər azaldığı qeyd olunub. Ölkə yollarında nəqliyyat vasitələrinin sayının çoxalmasına baxmayaraq, bu müddətdə ciddi yol-nəqliyyat qəzalarının sayı 24,1 faiz azalıb.

Davos Dünya İqtisadi Forumunun rəqabətədavamlılıq üzrə hesabatında BƏƏ yolların keyfiyyətinə görə ardıcıl olaraq beş il (2014-2018-ci illər) dünyada birinci yeri tutub. BƏƏ yol hərəkətinin təhlükəsizliyinin yüksəldilməsi üçün intellektual sistemlərin və ən müasir texnologiyaların istifadəsinə görə də aparıcı ölkələrdən biri hesab olunur.

***C.Natiq***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30